# “Xarici iqtisadi fəaliyyət iştirakçılarına həyata keçirdikləri idxal-ixrac əməliyyatları barədə statistik məlumatların verilməsi”

*elektron gömrük xidmətindən istifadə təlimatı*

Xidmətdən istifadə etmək üçün www.e-gov.az saytına daxil olmaqla “Bütün xidmətlər” bölməsi seçilir:




2-ci addımda ölkə üzrə fəaliyyət göstərən elektron xidmətlərin ümumi siyahısından «Qurumlar» bölməsindən “Dövlət Gömrük Komitəsi” seçilir:




3-cü addımda **“Xarici iqtisadi fəaliyyət iştirakçılarına həyata keçirdikləri idxal ixrac əməliyyatları barədə statistik məlumatların verilməsi”** xidməti seçilir:

Elektron Gömrük Bəyannaməsi haqqında məlumatların əldə edilməsi

Mallar haqqında gömrük sərhəd buraxılış məntəqələrində qeydə alınan məlumatların verilməsi

Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üzrə elektron gömrük bəyannaməsinin qəbulu, gömrük rəsmiləşdirilməsi və rəsmiləşdirilmə prosesinin onlayn monitorinqi

Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi üzrə elektron Sərnişin Bəyannaməsinin qəbulu

Gömrük əməliyyatları və ya gömrük proseduru ilə bağlı ödəniləcək gömrük ödənişlərinin həyata keçirilməsi

Gömrük ödənişlərinin ödəyicisinin eyniləşdirmə nömrəsinin alınması

Malın adına görə malların təsvirin axtarışı

Malların nomenklaturası və mal və nəqliyyat vasitələrinə tətbiq olunan müvafiq gömrük ödənişləri barədə məlumatların verilməsi

Nəqliyyatın idxalı üçün gömrük rüsumların hesablanması

Rəsmiləşdirilmə üçün tələb olunan sənədlərin surətləri

Xarici iqtisadi fəaliyyət iştirakçılarına həyata keçirdikləri idxal-ixrac əməliyyatları barədə statistik məlumatların verilməsi

Növbəti addımda elektron hökumət portalına daxil olmaq üçün səhifə açılır:




Bu mərhələdə elektron hökumət portalına daxil olmaq üçün bizdə aktiv olan müvafiq daxilolma vasitəsinə uyğun rejim seçilir. Əgər asan imza ilə daxil olmaq

lazımdırsa, "Asan imza ilə daxil olmaq" rejimi seçilir və ekranda aşağıdakı məlumatlar görünür:




Asan imza və istifadəçi İD-si daxil olunduqdan sonra "Daxil ol" düyməsi sıxılır və ekranda göstərilən rəqəm ilə telefona gələn rəqəm qarşılaşdırılır, eyni olduqda telefonun ekranında olan düymənin köməyilə bu təsdiq edilir, daha sonra Pin1 kodu daxil edilir, hər şey normal olarsa, aşağıdakı kimi səhifə açılır (Şəkil 1):




**Şəkil 1.**

Şəkil 1-dən də göründüyü kimi xarici iqtisadi fəaliyyət iştirakçıları rəsmiləşdirilmiş yüklər haqqında 5 hesabat forması üzrə məlumat almaq imkanına malikdirlər. Tutaq ki, xarici iqtisadi fəaliyyət iştirakçısı "İdxal etdiyim mallar haqqında hesabat" rejimini seçir, yəni o 2017-ci ildə idxal etdiyi mallar üzrə məlumat almaq istəyir. Bunun üçün o əvvəlcə uyğun rejimi və VÖEN-i seçir, daha sonra tarixi daxil edir (Şəkil 2):


İdxal etdiyim mallar haqqında hesabat
İxrac etdiyim mallar haqqında hesabat
Ödənişlər haqqında hesabat (tarixlər üzrə)
Təmsilçi şirkət tərəfindən yazılan GB-in sayı haqqında hesabat
Təmsilçi şirkət əməkdaşlarının yazdığı GB-lər haqqında hesabat
İdxal-ixrac etdiyim malların bank üzərindən ödənişlərinin hesabatı

**Qeyd:**
Hüquqi/fiziki şəxsin idxal etdiyi mallara yazılmış bəyannamələr üzrə statistik məlumatlar
**Məzmunu:**
Bəyannamənin nömrəsi, malın adı, hesablanmış rüsumlar və s.
**Şərti:**
Seçilən VÖEN = Qrafa 8

Hüquqi/fiziki şəxsin VÖEN-i XXXXXXXXXX
Tarix 01.01.2017 -dən
31.12.2017 -dək
Məlumatı göstər

**Şəkil 2.**

Xarici iqtisadi fəaliyyət iştirakçısı "Məlumatı göstər" düyməsini sıxdıqdan sonra növbəti ekranda onun seçilmiş dövr ərzində idxal əməliyyatları görünəcəkdir (Şəkil 3):

16.02.2018 17:30:42

**XXXXXXXXXX " XXXXXXXXXXXXXX XXXXXXXXX XXXXX XXXXX XXXXX** " AZ1065,BAKI ŞƏHƏRİ YASAMAL RAYONU,İNŞAATÇILAR PR.

01.01.2017 - 31.12.2017 dövrü ərzində Idxal əməliyyatları haqqında

**M Ə L U M A T**

| Bəyannamə No | Bəyaname tarixi | Rejim | Göndərən ölkə | Əm xar | Xarici tərəfdaş | Malın adı | Malın kodu | Malın miqdarı | Netto çəki | Dəyər stat (ABŞ dol) | Göm.rsm yığımı (man) | Idxal rüsumu (man) | Aksiz (man) | ƏDV (man) | Digər yığ-lar (man) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Gömrük orqanı:** 00100 Bakı BGİ | | | | | | | | | | | | | | | |
| XXXXXXXXXXXXX | 10.11.2017 | 400000 | Avstriya | 21 | SCİPİO GMBH VİENNA-AVSTRİYA | digər maşınlar və mexaniki qurğular: HOMOGEMZATOR ŞEKER | 8479820000 | 10.0 əd | 217,55 | 13298,76 | 200,00 | 117,97 | 0,00 | 4 304,27 | 177.00 |
| XXXXXXXXXXXXX | 10.11.2017 | 400000 | Avstriya | 21 | SCİPİO GMBH VİENNA-AVSTRİYA | PLASTİK KÜTLƏDƏN PİPET UCLUQLARI, NÜMUNƏ QABLARI 40 ƏDƏD | 3926909709 | 70.0 kq | 70,00 | 4181,33 | 0,00 | 1 112,78 | 0,00 | 1 535,63 | 0.00 |
| XXXXXXXXXXXXX | 10.11.2017 | 400000 | Avstriya | 21 | SCİPİO GMBH VİENNA-AVSTRİYA | LAMİNAR DOLAB 7 ƏDƏD | 9402900000 | 70.0 kq | 70,00 | 14664,11 | 0,00 | 3 902,56 | 0,00 | 5 385,53 | 0.00 |
| XXXXXXXXXXXX | 10.11.2017 | 400000 | Avstriya | 21 | SCİPİO GMBH VİENNA-AVSTRİYA | OPTİK ŞÜALANMA TƏSİRİNƏ ƏSASLANAN CİHAZ | 9027500000 | 4.0 əd | 51,00 | 7741,56 | 0,00 | 68,68 | 0,00 | 2 484,68 | 0.00 |
| XXXXXXXXXXXXX | 10.11.2017 | 400000 | Avstriya | 21 | SCİPİO GMBH VİENNA-AVSTRİYA | laborator reagentlər 7 ƏDƏD | 3822000000 | 175.0 kq | 175,00 | 4406,60 | 0,00 | 1 172,73 | 0,00 | 1 618,37 | 0.00 |
| **Gömrük orqanı:** 00800 HNBGİ | | | | | | | | | | | | | | | |
| XXXXXXXXXXXXX | 16.01.2017 | 415234 | Finlandiya | 21 | UNITY LAB SERVICE THERMO FİSHER SCİENTİFİC OY FİNLANDİYA | inersiyasız su qızdırıcıları və ya istilik su akkumulyatorları,qeyri-elekrik ( THERMO PikoReal 24 S/N PR241500436 ) | 8419190000 | 1.0 əd | 12,00 | 17692,02 | 100,00 | 0,00 | 0,00 | 18,00 | 35.40 |

**Şəkil 3.**

Xarici iqtisadi fəaliyyət iştirakçısı alınmış hesabat formasının yuxarı sağ küncündə olan -şəklindən printerin şəklini seçməklə bu məlumatları çap edə bilər. O “İdxal etdiyim mallar haqqında hesabat” forması ilə işləmək qaydalarına analoji olaraq digər hesabat formaları üzrə məlumatları da ala bilər.